

# Muzeydə səyyari sərgi

**Tarix-Etnoqrafiya Muzeyi 1924-cü ilin oktyabrın 30-u tarixli Naxçıvan MSSR XK Sovetinin qərarı ilə Naxçıvan şəhərində yaradılmışdır. İki ildən sonra isə (6 yanvar 1926) yerli hökumət tərəfindən "Naxçıvan Tarix- Etnoqrafiya Muzeyini zənginləşdirmək haqqında" məsələ qaldırılaraq və V. Həsənzadə, M. Mirheydərzadə, X. Hacılarov, A. Əliyarov və Ə. Rəhmanovdan ibarət xüsusi komissiya yaradılır.**

***Həmin illərdə muzey Xalq Maarifi Komissarlığının tabeliyində olub, keçmiş Kirov (indiki K. Atatürk) küçəsindəki mülkədar B. Əlibəyovun şəxsi evindəki iki otaqla dəhlizdə yerləşirdi.***

1930-cu ilin avqustun 27-dən muzeyin adı dəyişdirilərək Naxçıvan Tarix Ölkəşünaslıq Muzeyi olur və iki ildən sonra isə keçmiş Lenin (indiki Azadlıq) küçəsindəki yeni tikilmiş binaya köçürülür.

Həmin illərdə muzeydə 250-dək eksponat olsa belə, sonrakı illərdə 4880 ədədə çatdırılaraq ziyarətçilərin sayı 6 min nəfərdən artıq olmuşdur.

1945-ci ilin mart ayından Muzey Xalq Maarifi Komissarlığı tabeliyindən çıxarılaraq və Azərbaycan EA-nın Naxçıvan Elm Bazasına verilir. Nəhayət ki, 1956-cı ildən Muzey Naxçıvan MSSR Mədəniyyət Nazirliyi tabeliyinə keçdikdən sonra, keçmiş Lenin (indiki H.Əliyev pr.) küçəsindəki yeni tikilmiş iki mərtəbəli binaya köçürülür və qarşısındakı fəvvarəli çarhovuzda isə Nizami Gəncəvinin ayaqüstü möhtəşəm heykəli ucaldılmışdır. (1991-ci ildə həmin bina ilə heykəl sökülmüş və yerində birmərtəbəli Türkiyənin Naxçıvandakı konsulluq binası tikilmişdir. Həmin ildə Naxçıvan şəhərində onlarca heykəl və büstlər sökülmüş, o cümlədən də indiki H. Əliyev prospektindəki ikimərtəbəli keçmiş C. Məmmədquluzadə adına Müəllimlər İnstitutu binası Naxçıvan Türk Litseyinin ixtiyarına verildiyindən, həyət ərazisindəki

Mirzə Cəlilin ayaqüstü heykəli də sökülmüşdür. Bundan başqa indiki K. Atatürk küçəsində İ. İ. R.-nın baş konsulluq idarəsi yaradılanda Əməkdar rəssam Hüseynqulu Əliyevin yaratdığı "Qızlar bulaq başında" adlı heykəl kompozisiyası da sökülərək tarixdən silinmişdir. F.B.)

1967-ci ildən muzeyə Dövlət Tarix Muzeyi adı verilərək yeni tikilmiş indiki Nizami küçəsindəki 31 №-li binaya köçürülür. Yeni binada muzeyin ekzpozisiyası yenidən qurularaq tamaşaçıların üzünə açılır.

1983-cü ilin iyul ayından Dövlət Tarix Muzeyi Muxtar Respublikada tarix profilli muzeylərin baza müəssisəsinə çevrilmişdir.

2000-ci ilin noyabrın 4-dən Naxçıvan Dövlət Tarix Muzeyi, şəhərdəki keçmiş Puşkin (indiki İstiqlal) küçəsindəki ikimərtəbəli "Uşaq aləmi" mağazası binası yerində yenidən qurulmuşdur. Azərbaycan Prezidenti ümummilli lider mərhum Heydər Əliyev Naxçıvanda olarkən muzeyi ziyarət edərək demişdir ki;-"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır."

Haliyyədə Naxçıvan Dövlət Tarix Muzeyinə lazımi qaydada dövlət qayğısı göstərilir. Belə ki, 2007-ci ilin martın 6-dan ölkə prezidenti cənab İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" sərəncamı imzalanmışdır.

Həmin ilin may ayının 18-dən muzey binası əsaslı təmir olunaraq Naxçıvan MR Ali Məclisinin sədri cənab V. Talıbovun iştirakı ilə açılışı olmuşdur. Haliyyədə muzeyin ekspozisiyasındakı 10 şöbədə 46 mindən çox eksponat saxlanılaraq tarixi mədəniyyətimiz təbliğ olunur. Muzeyin fondu ilbəil zənginləşir. Belə ki, burada hər il orta hesabla 800- 1000 eksponat artaraq son 10 ildə 8000-ə çatmışdır.

Muzeyə gələnlərin sayı hər il artaraq 25-30 min nəfərə çatmışdır ki, onların da əksəriyyəti məktəbli-gənclərdən ibarətdir. Naxçıvan şəhər Təhsil Şöbəsinin tərtib etdiyi cədvəl əsasında muzeyin ekspozisiya zallarında tarixi mövzular üzrə "açıq dərs"lər keçirilir. Bunun üçün muzeydə tamaşaçılara xidmət göstərən 15 elmi işçi ilə bələdçilər vardır.

Muzeydə əhaliyə edilən mədəni xidmət səviyyəsi yüksələrək tamaşaçıları razı salır. Son illərdə burada elmi-tədqiqat və maarifçilik işlərinə diqqət artırılmışdır. Belə ki, muzey işçilərinin elmi məqalələri əsasında yazdıqları "Naxçıvan Dövlət Tarix Muzeyi" adlı məlumat kitabçası nəşr olunmuşdur. Əgər əvvəlki illərdə Naxçıvan tarixinə aid nəşr olunan 20 adda kitab olmuşsa, indi 300-dən artıqdır.

Muzey fonduna daxil olan eksponatların öyrənilməsi Azərbaycan MEA-nın Naxçıvan Bölməsi tarix və etnoqrafiya alimləri ilə sıx əlaqəsi nəticəsində həyata keçirilir. Bu işdə Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi ilə Muxtar Respublika TAMC-nin əməkdaşları da lazımi köməklik göstərirlər.

18 aprel Beynəlxalq Tarixi Abidələri Mühafizə Günü münasibətilə Naxçıvan Dövlət Tarix Muzeyində Muxtar Respublika rəssamlarının tarixi mövzuda olan əsərlərindən ibarət səyyari sərgi açılmışdır. Açılışda mədəniyyət müəssisələrinin işçiləri ilə bərabər məktəbli-gənclər də iştirak etmişdir.

Tədbiri giriş sözü ilə muzeyin direktoru əməkdar mədəniyyət işçisi N. Rəhimov, "Abidələrimizə dövlət qayğısı tariximizin qorunmasına xidmət edir" mövzusunda çıxış etmişdir. Sonra Naxçıvan Açıq Səma Altındakı Muzeyin direktoru əməkdar mədəniyyət işçisi Zemfira Seyidova, muzeydəki "Milli mədəniyyətimizdə daş qoçların yaranması və tədqiqi" haqqında ətraflı məlumat vermişdir. Təhsil işçiləri adından şəhərdəki 10 №-li ümumtəhsil məktəbinin tarix kabinetinin müdiri metodist müəllim Xatirə Baxşəliyeva, "Məktəblilərin tariximizin əyani öyrənilməsində muzeylərin rolu" haqqında çıxış etmişdir.

Mədəni-kütləvi tədbir iştirakçılarını Mədəniyyət və Turizm nazirinin müavini Məhəmməd Həsənov, Beynəlxalq Tarixi Abidələrin Mühafizəsi günü münasibətilə təbrik etmişdir. Bundan sonra tədbir iştirakçıları muzeydə açılmış mərhum naxçıvanlı rəssamların yağlı boya ilə çəkdikləri retro əsərlərindən ibarət səyyar sərgi ilə tanış olmuşlar.

**Tamaşaçılar sərgidə rəssamlardan M. İsmayılovun "Xanağa kəndi", H.Əliyevin "Xaraba Gilan qapısı", "Yezidabad məqbərəsi", "Yusif Küseyir oğlu məqbərəsi", "Möminə Xatun məqbərəsi", "Gülüstan məqbərəsi", "Əlincəçay Xanağa kompleksi", Ş. Mustafayevin "Ordubad zorxanası", "Naxçıvan məscidi", "Naxçıvan imamzadası", "Möminə Xatun", N. Əliyevin "Aza körpüsü", "Xanağada Nəiminin türbəsi", D. Kazımovun "Naxçıvan XII əsrdə", Q. Bağırovun "Zorxana", Ş. Qazıyevin "Naxçıvan XX əsrdə" və başqa tarixi memarlıq tablolarına heyranlıqla tamaşa etmişlər. Tarixi mədəniyyətimizi öyrədən səyyar sərgi bir ay müddətində tamaşaçıların ixtiyarında olacaqdır.**

**● F.BAĞIROV**